# Söz sərrafı

***(Əvvəli ötən saylarımızda)***

Kreslolara özünü pərcim edənlər bir bəla kimi cəmiyyət üçün qorxuludurlar. Əliəyrilik onların qeyrət damarıdır. Özlərini mənən əyən bu adamların ağır bəlası bir də ondadır ki, düzləri də əyməklə cəmiyyətdəki xaosu daha dərinləşdirib qatılaşdırırlar. Özünü çəkə-çəkə, sözləri əyə-bükə boyundan uca, başından yekə danışan bu harınlara, nəhayət, üz tutub insafa gəlməyə, adam oğlu adam kimi yaşamağa dəvət edən şair yazır:

...Ayağını vur yerə,
dur özünü silkələ!
Tökülsün təkəbbürün,
sən də sadəliyə bürün,
adam balası kimi görün.

Nə yazıqlar ki, bu cür təkəbbürlü, gözdən iraq adamlar arasında qadınlarımızı görəndə qanımız daha da qaralır. Müğənnilik edən qızlarımız arasında belələri çoxdur. Yeni gələn nəsil, gənc qızlar onlardan nəyi özlərinə örnək etməlidir?Ətrafin buradakı gülüşü “həqiqi söyüşə”çox bənzəyir. Belələrini “söyməyəsən”bəs nə edəsən!?

Yerişiylə özünü öyür.
Sanki, ayaq səsləri:
- Baxın!Bu gələn mənəm!-deyir.
Görən, bu hardan çıxıb gəlib?
Neçə evlər yıxıb gəlib?
Küçə ilə bir bəla gedir!
Saçları rəngbərəng,
ilmə-ilmədir.
Əyni anadangəlmədir.
Adam gördüklərini
deyə bilmir sözlə də
Elə bil, ayıb yeri yoxdu gizlədə.

Adətən, hər hansı bir şairin poetik özgörümlüyünün vüsətini konkret bir neçə güclü şeirlərinin təhlilə cəlb edilməsi və qulağa təzə çatan metaforik fiqurla-bənzətmələr, izafətlər, kəsəsi yeni deyimlərin sıralandırılması ilə sübuta yetirirlər. Bu cür təqdimat və təhlil işi ədəbi tənqid elmində çoxdan özünə yer almış, özünü təsdiq etmiş və praktik tənqidçilərin bu yolla da öz üslublarını yaratdığı fikrin ifadə formasıdır. Hamımız bilirik ki, ümumən, ədəbiyyatşünaslıq elmində bədii təsvir və ifadə vasitələrsiz ədəbiyyat məhsulu yoxdur və ola da bilməz. Bu nöqteyi nəzərdən baxaq görək Ətraf Sərrafın poetik təsərrüfatı bunlarla necə bəzənib, fikrin dolğunluğa necə xidmət edib. Gəlin nümunələri sıralayaq:”Durna qatarı göy üzünə ayrılıq şəkli çəkdi ki, buludlar doluxsun”, ”gözəl yanmayan gözəl ölə bilməz”, qərib gecənin ağ qaranlığı”, Qatarın yolunu dəyişən relslər kimi cizgilər oynayırdı üzündə”, ”Özümə oxşayan sevgi şeirimin qafiyəsi ağaran saçlarımla eynidir”, ”üşüyən ürəyimi əllərimə alib hovura-hovura ovuşdururam(Məhəmməd Hadiyə həsr olunan şeir kimi Ə. Ə), ”gecənin gözlərinin qarasına sel olub axan buludlar, ”şəhid yaşından utanmaq”, ”gözlərindən öpülən səhər”, ”küçələri çiyinə alib gəzmək”, ”söz işığında yol getmək”, bir gözü Şəhidlər Xiyabanına, bir gözü həsrətlə yola baxan dərdli qoca palıd”, ”Üzün qırışığına yazılanları ağaran saçların işığında oxumaq”, ”yarpaqlar ayrı düşən sevgililərdi”, ”qara bulud çarşabını atıb başına, güc verir göz yaşına”, ”çarəsiz olan dərdin çarəsiylə yaşamaq”, ”ölümün sərhədini keçən ağlamaq”, ”kədərin dərd heykəli”, ”ürəkdən sökülən ağrılı sözlərin ağ kağıza bükülməsi”, ”budaqdan, tağdan qopan, vaxtdan düşən poetik “mən”, ”heca-heca, kəlmə-kəlmə, düyün-düyün, naxış-naxış, ilmə-ilmə ağlamaq”, ”ömür bir qəmli havadı, çaldılar məndə oynadım”, ”adına böhtan deyilən sevgiyə qısılmaq”, ”yalanı dar ağacı bilib asılıram”, ”Ayrılıq sözünü yazan durnanın, havada oynayan qələm lələyi”, ”ünvanına yetməyən çoxdan yazılmış son sevgi məktubu-payız yarpağı”, ”qədim xalça naxışı, yorğun qarı baxışı -payız yağışı”, ”ömrün ayrılıq illərini tellərdə axtarmaq”, ”söz bağında açan gülün əbədi baharı”, ”vaxtsız sönmüş ocağın köz ağrısı”, ”ağrıların üstündə yatmaq”, ”səmimi hisslərimizi edam edib bizi qupquru adam edən mobil telefon”, ”evimizi sükuta bükən mobil telefon”, ”sükutun içində fırtına toxumu”, ”qara asfalt saçlarını çatib kefi pozulan şəhər”, ”arzuların dar ağacı”, ”dar ağacından asılan ilk məhəbbət“, ”səni söz kimi sevdim”, ”bir topa söz olan adam”, ”xəyalda yaşanmışlanı daraq kimi darayan ümidlərin payız yağışında islanması”, ”düyməsdüymə açılan səhər yaxası” və beləcə, diqqətdən yayınan onlarla deyimlər bədii təfəkkürün qatlarından süzülüb gələn həyat duyumları, könül duyğuları, qəlbimizə ötürülən və burada öpülüb göz üstə qoyulan əlahəzrət şair sözləridir.



Ətraf Sərrafın bütün fəsillər üçün yazdığı şeirlərdə hər fəslin rəngarəng çalarlarını, rəngini görərkən bu fonda insani yaşantıların həmin təsvir və bənzətmələrlə harmoniya yaratdığının nəzərdən qaçıra bilmirsən. Təbiət, rənglər və insan Ətraf söyləmlərində birləşərək bütövləşir. Bu ən ümumi halda belədir. Şairin duyum qabiliyyəti, müşahidəçilik itiliyi, mənalandırmaq məharəti, beynindəki şairlik havası onun yeni insan pəngləri yaratmasına, müxtəlif çeşidli obrazların bədii surətini çəkməsinə rəvac vermişdir. Elə götürək “Kölgə”şeirini. Burada Rəsul Rzanın rənglərinin surətini özünəməxsusluqla təkrarlanması tamam orjinaldır. Burada yeni bənzətmələr qalareyası kölgənin üstündə köklənmişdir. Kölgənin rəng çaları insan obrazında görün nə qədər heyrətamiz bir vüsətlə reallaşır. Şairin bənzərsiz tapıntılarına heyran qalmamaq mümkün deyil. Belə bir yorumu, yalnız həqiqi istedad sahibləri, qeyri-adi təfəkkür şairləri yarada bilər. Əlində şair qələmi olmayan bu cür assosiasiyaları, bənzətmələri, izafətləri toparlayib “kölgə”nin simasında təbiət və insan harmoniyasının klassik heykəlini yona bilməz. ”Ağaran saçlarının işığında üzünün qırışığını oxuyan”şairin həmin şeirini başdan-başa təqdim etməmək mümkün deyil. Təkcə elə bu şeir poeziyamızda Ətrafın səviyyəsini, yerini tam inandırıcılıqla aydın göstərir.

Foto-şəkil.
Müdir yanında dolanan
“vəzir”, “vəkil”.
Arxada danışılan söhbət,
yəni qeybət.
Boğuq səs.
Ötəri həvəs.
Şübhəli keçmiş.
Xatirəli dünən.
Əsl rəssam işi.
İş tapmayıb
axşam evə peşiman dönən
pulsuz kişi.
Göynəksiz yara.
Rəng - açıq qara,
ya da badımcanı.
Uşaq yalanı.
Rüşvətxor gözündəki qorxu.
Vahiməli yuxu.
Ailəyə məhrəm oğru.
Təcrübəli xəfiyyə.
Ən aşağı səviyyə.
Əslin surəti.
Qorxağın cürəti.
Varlığın sübutu,
həm də yox tərəfi.
Yaltağın lüzumsuz tərifi.
Səxavətli zəngin adamdan
umulan aman yeri, -
Fəqirin son güman yeri.
Oxunmuş bayatı, nağıl.
Fərsiz oğul.
Barsız, bəhərsiz ağac - söyüd.
Gecikmiş nəsihət, öyüd.
Dərdli adamın şəkdiyi “ah!”.
Yarı açılan sabah.
Ömrə uzanan qaibanə əl -
ƏCƏL.

60-cı illərin yaradıcılığı dövründə kənd nəsri, şəhər nəsri anlamı dəbdə idi. Bu nəsrdə şəhər və kənd həyatına, psixologiyasına uyğun üslublar formalaşdı. Bu poeziyada şaxələnməsə də şairlər də nəsr aydınları kimi ədəbi prosesin inkişaf istiqaməti və yükünü şərəflə çəkməli oldular. Onların ədəbi fəaliyyəti altmışıncılar kimi dəyərləndirərək ədəbiyyat tariximizdə ədəbi yeniləşmə, təkamül, ədəbi mərhələ kimi mənalandırıldı. 60-cılar öz yerində, Ətraf və onun kimilər, yəni onun yaşda olanlar daha çox altmışıncıları özlərinə örnək seçmişdi. Fikrət müəllimin yaradıcılığında nələr yox idi, nələr. Öz həllini yüksək bədii dillə poeziyaya gətirirdi, çoxumuzun fəxarət şairinə çevrilmişdi. O, Ətrafin ilk şeirini dinləyən kimi demişdi;”Sən şairsən, get yaz və bununlada çox keçmədən ədəbi jurnallarda çap olunmağa başladı, şeirdən şeirə püxtələşərək ilk kitabıyla birliyə üzv qəbul edildi. Kənd, şəhər nəsri mərhələsini niyə xatırlatdıq? Ona görə ki, Ətraf yaradıcılığında kənd mövzusu üstünlük təşkil edir. Bu mövzuda ayrılığın o üzü olduqca təsirli, məhrəm, ürək göynədən döyüntüləri az qala oxucunun öz ürəyində döyünməli olur. Ayrılığın o üzündə olan kənd Ətraf Sərraf qələmində üç istiqamətdə təqdim olunur. Birincisi, ayrılığın o üzündə sevimli fidan balasını-Nərmini torpağa tapşırıb şəhərə gəldi. Nərminli, Nərminsiz illər onlarla şeirlərdə dərd ağrısı, saç ağlığı reallığı onun ata qəddini əydi. Bu mövzuya toxunmuram. Övlad itkisinin ağırlığını çəkənlər həssas söz sahibləri Ətraf yaradıcılığındakı övlad sevgisi, övlad oturuşu, duruşu, baxışı necə həssaslıqla, qüssəylə dil açıb “ağı”deyir. Söhbətlərimiz zamanı utanmışam ki, deyəm ayrılıq sözləriylə əriyib gedirsən, gedən Allaha məxsusdur. Bu qədər sızlamaq, bozlamaq olmaz. Allaha xoş getməz. Nərminli, Nərminsiz illər, aylar, günlər haqqında Ətraf sözlərilə danışıb oxucuları kövrəltmək istəmirəm. Onun istənilən mövzuda yazdığı şeirlərdə bir çəkərlik, bir gözəllik, həlimlik var. Kim onun nərminli poeziyasiyla tanış olmaq istəyirsə, qoy Ətrafın kitablarını əldə etsin. Xüsusən də, ”Ayrılığın o üzü” və haqqında bəhs etdiyimiz “Ömür bir fəsilmiş”lə.

İkinci, kənd mövzulu şeirlərində bədii təsvirlər fonunda, xüsusən payız və qış fəsilləri mənzərəsində o, uşaqlıq, gənclik, ahıllıq illərini ilmə-ilmə sapa düzür, yaşadıqlarını, kəndin ahıl və qocalarını, xüsusən, şəhidlərini dönə-dönə yad edir, analı-atalı günlərindən şirin xatirələr söyləyir. Özü də necə. Bax əsas məsələ bundadır. Yazımızın əvvəlində onun üslubundan, yazı ədasından söz açarkən bu barədə müəyyən saçmalar vermişik. Onları təkrarlamadan yalnız bir cümlə ilə onu demək olar ki, buradakı sətirlər o qədər doğma, o qədər məhrəm, o qədər sadəlik və səmimiliklə, lirik bir vüsətlə dil açib danışır ki, insani mifik ilkinliyin saflığına, arılığına, duruluğuna qərq edir. Bu şeirlər gözümüz qarşısında eposlaşır, sanki, xalqımızın uluq-turuğundan tutmuş şairin daha kənd yollarında rastlaşmadığı yaşıdlarınacan, yeni nəsləcən həyati, tarixi canlılaşaraq, palıdına, çəməninə, gülünə, çiçəyinə, mal-qarasına, hətta kənd xoruzunadək oxucuyla həmfikirləşir, onu xoş ovqatlı təbəssüm işığında poeziya aləmində gəzdirir.

Ətraf Sərrafın kənd mövzusundakı şeirlərində bir cəhət isə sevgi duyğularıyla bağlıdır. Bu duyğular bizə elə altmışıncılar nəslinin nəsrindən, poeziyasından bəllidir. Ətraf həmin duyğuları, sanki, fərdiləşdirir, sanki, şeirlərindəki “poetik mən”onun özüdür. O, öz sevgisini yazır. Amma necə yazır. Bu şeirlərdə klassik, romantik məhəbbət qəhrəmanlarının adları çəkilmir, romantik duyğular Füzuli, Nizami, Nəsimi babalarımızdakı kimi böyük fəlsəfi bir vüsətlə ilahi ucalığa qaldırılmır, Tanrı sevgisi şəklində vəsf olunmur. Ətrafdakı bu sevgi notları öz yaşantılarına, öz xasiyyətinə görə öz zamanına oxşayır. Yaxşısı budur, gəlin Ətrafın ayrıla bilmədiyi kənd şeirlərindən, kəndin məktəbli yeniyetməsinin içindəki oyanışlardan, ailə sevgisindən söhbət açaq. Zənn edirik ki, Azərbaycan kəndi Ətraf şeirlərində bizə qucaq açacaq. Bu kəndi bağrımıza basaraq “atam”, ”anam”, ”balam”, ”nəvəm”, ”əmim”, ”qardaşım”, bacım”, nəhayət “doğmalarım”bilib suyunda durula Ətraf Sərrafın kənd mövzusundakı şeirlərində bir cəhət isə sevgi duyğularıyla bağlıdır. Bu duyğular bizə elə altmışıncılar nəslinin nəsrindən, poeziyasından bəllidir. Ətraf həmin duyğuları, sanki, fərdiləşdirir, sanki, şeirlərindəki “poetik mən”onun özüdür. O, öz sevgisini yazır. Amma necə yazır. Bu şeirlərdə klassik, romantik məhəbbət qəhrəmanlarının adları çəkilmir, romantik duyğular Füzuli, Nizami, Nəsimi babalarımızdakı kimi böyük fəlsəfi bir vüsətlə ilahi ucalığa qaldırılmır, Tanrı sevgisi şəklində vəsf olunmur. Ətrafdakı bu sevgi notları öz yaşantılarına, öz xasiyyətinə görə öz zamanına oxşayır. Yaxşısı budur, gəlin Ətrafın ayrıla bilmədiyi kənd şeirlərindən, kəndin məktəbli yeniyetməsinin içindəki oyanışlardan, ailə sevgisindən söhbət açaq. Zənn edirik ki, Azərbaycan kəndi Ətraf şeirlərində bizə qucaq açacaq. Bu kəndi bağrımıza basaraq“atam”, ”anam”, ”balam”, ”nəvəm”, ”əmim”, ”qardaşım”, bacım”, nəhayət “doğmalarım”bilib suyunda durulacağıq, döngələrində tanış üzlər görəcəyik, şehli ot-ələfində, çəməndə dincələcəyik, çiçəklərinin ləçəyindən öpəcəyik və s.

Şairin yozumunda(əslində reallıqdır-)uşaqlıq illərinin kəndi ömrün ən kasıb bölgəsidir, ”dünyanın ən uzaq yeri kimidi uşaqlıq xatirələrindəki kənd”.

Yadıma düşür çətinliyimiz.
Bizi yarıac saxlayan yetimliyimiz.
Bir də anam-
yetimliyindən yetim sahibi olmağı
öyrənən anam.

***(Davamı var)***

*Əkbər* Əlioğlu
***filologiya üzrə fəlsəfə doktoru,***
***Azərbaycan Yazıçılar Birliyinin***